**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.269**

**SOLMAZ AXUNDOVA***

# SERGEY PROKOFYEVİN RUS MUSİQİSİNƏ VERDİYİ XƏZİNƏ

*Sergey Prokofyev zəmanəmizin dahi musiqiçisi öz tercümüyi-halında maraqlı xatirələrdən bəhs etmiş, 13 yaşında necə imtahan verməyindən söz açmışdı. Musiqi bəstələməyə hələ kiçik yaşlarından başlamış və heç vaxt əl çəkməmişdir.*

*Prokofyevin çoxlu müasirləri, hətta tədqiqatçılar onun yaradıcılığında, onun musiqisində "lirik axını" , ağır ritmləri görürdülər.*

*Dahi musiqiçi Prokofyev həm də dahi zəhmetkeş idi. O, həyatının əlli ilini musiqi əsərləri bəstələməyə sərf etmişdir.*

***Açar sözlər:** musiqi,  konsert, bəstəkar, fortepiano, yaradıcılıq.*

## Giriş

Sergey Prokofyevin fortepiano yaradıcılığı, rus musiqi incəsənətinin çox əsrlik inkişaf yolu XVIII əsrin sonunda rus milli bəstəkarlıq məktəbinin yaranmasına, XIX əsrdə isə öz klassik çiçəklənmə dövrünə nail oldu. Bədii yaradıcılığın böyük inkişafı rəngarəngdir. Tarix və müasirlik, şəxsiyyətin dərin analizi, təbiətin və məişətin analizi, dünya mədəniyyətinin hərtərəfli obrazlarının qəbulu qeyd olunmalıdır.

XIX əsrin çox janrlı rus klassik musiqisi həyatı hadisələri geniş əhatə edir. Rus klassik musiqisinin inkişafında aparıcı rolu vokal janrlar tutur. XIX əsrin ortalarında yüksək nəailiyyətlər əldə etmiş mahnılar, romanslar, operalar yaradıcılığın başqa sahələrinə də təsir etmişdir. Rus klassik musiqi incəsənətinin əsasını melodiya təşkil edir və demək olar ki, rus musiqi üslubunun əsasını melodiya təşkil edir.

## Əsas məzmun

Rus klassik musiqi incəsənətində bərabər əhəmiyyəti olan iki əsas musiqi inkişafı növü var. 1.Dramatik  2.Enik. Bu öz əksini opera, simfoniya və kamerni janrlarda tapdı. Məlum məsələdir ki, lirik emosiyaların incəsənətdə canlanması musiqiyə aiddir. Əsərin lirik əhatəsi onun humanist ideyalarının əsas aparıcısı kimi çıxış edir.

Rus klassik musiqisinin inkişafı tək mahnı və romansı ilə kifayətlənmir, başqa mədəniyyətlərdə millilik axtarır. Bu rus musiqi incəsənətini tək qərbi avropa ölkələri ilə deyil, şərq xalqlarının milli musiqi mədəniyyəti ilə də yaxınlaşdırır.

Rus klassik musiqisinin inkişafı dövründə muisqiçinin ümumi xüsusiyyətlərindən danışmaq olar. Bəstəkar tək yaradıcılıqla kifayətlənmir, pedaqoq, ifaçı, tənqidçi kimi fəaliyyət göstərir.

Rus musiqi klassiklərinin realist ənənələri realist incəsənətə daxil oldular.

Rus musiqisinin inkişafında çoxsaylı bəstəkarlar aktiv iştirak ediblər. İ.Stravinskinin, S.Prokofyevin və L.Myaskovskinin adı bu sıradadır. İstedadlı bəstəkar həm də parlaq ifaçı-pianoçu olan Prokofyev XX əsrin əvvəlində rus incəsənətinin müxtəlif sahələrində yeniliklər axtarır, musiqidə rus ənənələrini yüksək qiymətləndirirdi. Myaskovski ilə birlikdə Prokofyev sovet dövrü rus musiqisinin inkişafında böyük rol oynadılar. Həyatda dost olan bu iki bəstəkar, yaradıcılıqda öz fərdiliyi ilə fərqlənirdi.

Prokofyevin kamera, simfonik əsərləri bütün rus və qərbi avropa musiqisində öz xüsusi keyfiyyətləri ilə seçilir. Harmoniya və ritm bəstəkarın fərdiliyini göstərir.

Parlaq istedada malik olan bəstəkar özünə məxsus üslubu ilə ilk konsert estradasındakı çıxışları ilə tək bəstəkar kimi yox, temperamentli pianoçu kimi də diqqəti cəlb etdi. Bütün əsərlərində ilk notlardan onun xarakteri, ritmi və harmoniyaları özünü büruzə verir. Prokofyevin musiqisini tanımamaq mümkün deyil, irəli can atan musiqisi öz mənasının itirmir. Onun zəngin, bitib-tükənməyən melodik materialı, dəmir və qəhrəmani ritmi, harmoniyaların ciddiliyi hərəkət musiqisidir. Bu musiqi sağlam həyatdan yorulmur. Onun yaradıcılığının ilk dövrü uşaqlıq dövrüdür.

Konservatoriyanın ilk illəri onun bəstəkarlığa meyl etdiyi, müxtəlif sahələrdə axtarışlar apardığı

illərdir. Əlbəttə ki, fortepiano əsas yerdədir. 1906-cı ildən Prokofyevə xas olan xüsusiyyətlər, onun üçün xarakterik olan keyfiyyətlər qabarıq görünür. Harmoniya, ritm və melodiyada.

1909-cu ildən isə öz üslubu üzərində ciddi işə başlayır. "Navajdeniye" pyesi, fortepiano və orkestr üçün "birinci konserti", "ikinci sonatası", fortepiano üçün tokkatası bəstəkarın xarakterinin tez yetişməsinə səbəb olur. 1913-cü il fortepiano və orkestr üçün "ikinci konserti" gənclik coşğusu və emosiyası ilə bəstələyir.

Prokofyev hələ imtahanlar vererkən, stolun üstünə opera klavirləri, simfoniya partituraları qoyurdu.

Musiqini inamla təhlil edən adamın tərcümeyi-halı əyalətdən başlayır. Anası yaxşı pianoçu idi, ona görə də ilk musiqi təhsilini anasının rəhbərliyi ilə almışdı. Prokofyev başa düşəndə ki, musiqi aləmini heç vaxt tərk edə bilməz, onda bəstələməyə başladı. İki operasını: "Velikan" və "Na pustınnıx ostrovax". 9-10 yaşı olanda yazmışdı. On bir yaşlı bəstəkarı S.Taneyevə təqdim etdilər. Böyük musiqiçi və ciddi pedaqoq bu oğlanın istedadını görüb, musiqi ilə ciddi məşğul olmağı məsləhət gördü. Seryoja Taneyevlə yanaşı P.Qlierdən bəstəkarlıq dərsləri alırdı.

13 yaşlı Prokofyev professional dərslər almaq üçün Peterburq konservatoriyasına daxil olur. A.Lyadov, N.Rimski-Korsakovdan bəstəkarlıq, A.Vinkler və Yosipovadan fortepiano dərsləri alırdı. 1908-ci il 17 yaşlı Prokofyev ilk dəfə konsertdə çıxış etdi, fortepiano pyesləri ilə yanaşı "Navajdeniye" çaldı.

Gənc Prkofyev "Müasir musiqi axtarışlarının" tez-tez qonağı olur ki, orada yeniliklər ifa olunurdu, Prokofyev Arnold Şönberqin fortepiano pyeslərinin ilk ifaçısı oldu.

Valideynləri mükafat olaraq Prokofyevə xaricə getməyi təklif etdilər. O, Londonu seçdi. O zaman S.Dyaqilevin opera-balet truppası orda qastrolda idi. Repertuar Prokofyevi çox maraqlandırırdı. Londonda onu Ravelin "Dafnis və Xloy", Stravinskinin iki baleti: "Zar-ptisa", "Petruşka" məftun etdi.

Rusiyaya dönən Prokofyev işə başlayır. Balet teatrının tarixində rast gəlir ki, zəif dramaturgiya əla musiqi ilə müvəfəqiyyət qazanır. Prokofyevin "Ala və Golli" baleti Qarodeşkinin yazdığı zəif libretto üzündən uğursuzluğa uğradı. Gənc Prokofyevin müasirləri onun iti, nisbətən kobud, ağırçəkili ritmlərinin arasında lirik bir axının olmasını sezdilər. "Mimolyotnosti", "Sarkazmı" kimi fortepiano məcmuələrində, ikinci sonatanın köməkçi temasında, romanslarında lirik və utancaq intonasiyalara rast gəlinir.

İnqilabdan əvvəl Prokofyev Dostoyevskinin novesti əsasında yazdığı "Lqrok" operası üzərində işləyir. Burada o Musorqskiyə daha yaxınlaşır, amma opera bir çox səbəblərə görə az qala on il kənara qoyulur. 1929-cu ildə Brüsseldə onun premyerası baş tutur.

Prokofyev simfoniya düşünür, onun işıqlı, həyat eşqi ilə yaşayan "Klassik simfoniya" sı yaranır. Simfoniyanın ilk ifası inqilabdan sonra, 1918-ci ildə baş tutur, həmin il o xaricə gedir. Yaponiyada, sonra Amerikada konsertlər verir. Üç il yarım Amerikada yaşayandan sonra əsərləri sırasına bir opera da əlavə olunur. "Zyubov k tryem apelsinam". Operanı ironik nağıl adlandırmaq olar 1921-ci ildə Çikaqoda üçüncü konsertinin ilk ifası oldu, solo partiyasını müəllif özü çalırdı. Beş fortepiano konsertindən bu günə qədər "üçüncü konsert" öz populyarlığı ilə seçilir.

1920-ci ildə Prokofyev Avropaya köçür –Parisə. Dyaqilevlə əlaqələrini bərpa edir. 1923-cü ildə Parisdə ilk dəfə ifa olunan skripka konsertini yazır.

1927-ci ilə Prokofyev Sovet ittifaqına böyük konsert turnesi həyata keçirdi. 20-ci illərin maraqlı əsərlərindən biri "üçüncü simfoniyadır".

Vətənə qayıtmağı Prokofyev çoxdan arzulayırdı. O deyirdi:

"Qürbət havası məndə ilham vermir, çünki mən rusam. İnsan üçün sürgündə yaşamaqdan pis bir şey yoxdur, mən yenidən vətənimə qayıtmalı, rus danışığı eşitməli, əsil qışı, baharı yenidən görməliyəm.

1933-cü ildə Prokofyev vətənə qayıdır, amma vətən dəyişib. İnqilabdan sonrakı on altı ildə yeni zövqlü, yeni düşüncəli təzə auditoriya yaranıb, bədii, estetik mədəniyyət yaranıb.

30-cu illərin ikinci yarısı Prokofyevin ən gözəl əsərlərindən biri olan "Romeo və Cülyetta" baleti ilə yadda qalır. Leninqrad opera və balet teatrında tamaşaya qoyulan bu balet dünya xoreoqrafiya

mdəniyyəti tarixində böyük rol oynadı. Baletin simfonik prinsipləri, musiqi üslubu Prokofyevin sonrakı iki baletində "Zoluşka" və "**Сказ о каменном цветке" möcüzəsi rus musiqisi ilə yadda qalır.**

Prokofyevin yaradıcılığında baletlərlə yanaşı, əsas vacib onun operaları tutur, bu janrda bəstəkar mürəkkəb yol keçib. Bir aktlı "Maddalena" operasından sonra o başqa operaya "Lqrok" operasına müraciət edir. Sonra yüngül və şən musiqisi olan, böyük müvəfəqiyyət qazanan "Zyubov k tryem apelsinam" operasını bəstələyir. Uzun illər opera janrına müraciət etmir.

Prokofyev Qafqaza təxliyə olarkən, çətin vaxtlarda "Voyna i mir" operasını yazır və dəfələrlə bu operaya qayıdır, gah dramaturgiyanı, gah epizodları dəyişir.

Prokofyevin doqquz fortepiano sonatasından heç biri ədəbi proqrama malik deyil. Altıncı sonatada dəqiqliklə yanaşı yumor və lirika da yer alır. Yeddinci sonatada iki düşmən obrazının toqquşması və mübarizəsi təsvir olunur. Səkkizinci sonatada lirika, doqquzuncu sonatada işıqlı, parlaq lirika üstünlük təşkil edir.

Prokofyev öz musiqisini ifa edən güclü pianoçu idi. Neyqauz, Qilels, Rixter, Lofroniskiy və daha da gənc pianoçular öz repertuarlarına Prokofyev sonatalarını daxil edir, onlarda yeni zəngin obrazlar, ideyalar tapırdılar. Yazdığı simfoniyalar bir-biri ilə kontraslıq təşkil edir.

Prokofyev yaradıcılığının ən maraqlı səhifələrindən olan fortepiano əsərlərində virtioz pianoçu fortepianonun instrumental xüsusiyyətini çox yaxşı hiss edirdi.

Fortepiano əsərlərinin yaradıcısı pianoçu Prokofyev bir-birindən ayrılmazdır, eyni zamanda Prokofyev pianizmi və yaradıcılıq üslubu Skryabin yaradıcılığı ilə sıx əlaqədardır. Gənclikdə yaxın əlaqələri olan Mayakovski ilə də qarşılıqlı münasibətləri olmuş və onlar bir-birini tamamlayırdılar.

**Nəticə**

Prokofyevin fortepiano əsərləri tək rus musiqisində deyil, dünya fortepiano yaradıcılığında yeni səhifələr açdı. Bəstəkar bu alət üçün yazılmış musiqinin bütün zəngin imkanlarını göstərdi. XX əsrin pianist mədəniyyətinə yenilənmiş elementlər- işıq, sevinc, enerji kimi hisslər bəxş etdi. Əsərlərinin əhəmiyyətli hissəsində rus xalq mahnılarına və ənənələrinə söykənir.

Öz yaradıcılıq prinsiplərinə sadiq olan Prokofyev həmişə irəli hərəkət edir, sona qədər zamanın tələblərinə cavab verirdi. Onun proqressiv yenilik gətirən nəticələri fortepiano əsərlərinə ölməzlik verir.

Prokofyevin fortepiano yaradıcılığına əsas, vacib yeniliklər gətirən hansı xüsusiyyətləridir? Onu başa düşmək üçün əsərlərdə yeni xarakter, yeni dil, proqressiv estetik yaranışları təsəvvür etmək lazımdır.

## ƏDƏBİYYAT

1. Rus musiqi ədəbiyyatı III buraxılış. Leninqrad «Музыка», 1967, 97-102 s.
2. E.M.Orlova. XIX-XX əsrin əvvəllərində rus bəstəkarları haqqında oçerklər. Moskva «Музыка», 1982, 186-190 s.
3. Entelis. XX əsrin bəstəkarlarının portreti. «Музыка», 1982, 190-201 s.
4. B.Asafyev. XX əsrin musiqisi haqqında. Leninqrad «Музыка», 1982, 56-72 s.
5. Rus musiqi ədəbiyyatı. Leninqrad «Музыка», 1975, 160-176 s.
6. Böyük rus ensiklopediyası. Moskva, 1992, 58-76 s.

***NDU, Fortepiano kafedrası, dosent***
***Azərbaycan Respublikasının Əməkdar müəllimi***

**Solmaz Axundova**

## THE TREASURE THAT SERGEY PROKOFYEV GAVE TO RUSSIAN MUSIC

Sergey Prokofyev, the great musician of our time, in his autobiography, told interesting memories, telling how he passed the exam at the age of 13. He began composing music at a young age and never gave up. Many of Prokofyev's contemporaries, even researchers, saw in his work, in his music a "lyrical flow", heavy rhythms. The great musician Prokofyev was also a great laborer. He spent fifty years of his life composing musical works.

**Keywords:** *music, concert, composer, piano, creativity.*

**Солмаз Ахундова**

## СОКРОВИЩЕ, КОТОРОЕ СЕРГЕЙ ПРОКОФЬЕВ ДАЛ РУССКОЙ МУЗЫКЕ

Сергей Прокофьев, гениальный музыкант современности, в своей автобиографии рассказал об интересных воспоминаниях, как он сдавал экзамен в 13 лет. Он начал сочинять музыку в раннем возрасте и никогда не останавливался. Многие современники Прокофьева, даже исследователи, видели в его творчестве, в его музыке «лирический поток» и тяжелые ритмы.

Гениальный музыкант, Прокофьев был и гениальным трудолюбивым человеком. Он посвятил пятьдесят лет своей жизни сочинению музыки.

**Ключевые слова :** *музыка, концерт, композитор, фортепианино, креативность*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 02.02.2025**
**Son daxilolma tarixi:29.02.2025**